# Prezident İlham Əliyevin təklifləri beynəlxalq aləmdə yüksək səviyyədə dəstəklənir



**_Azərbaycanın nüfuzlu beynəlxalq təşkilatların fəal üzvünə çevrilməsi və bəzi hallarda həmin qurumlara sədrlik etməsi ölkəmizə və onun liderinə olan inam və etimadın nəticəsidir. Təsadüfi deyildir ki, BMT-dən sonra ikinci böyük təşkilat olan Qoşulmama Hərəkatının üzvləri Azərbaycanın daha bir il bu quruma sədrlik etməsi ilə əlaqədar Prezident İlham Əliyevə müraciət ünvanlayıblar. Onu da qeyd edək ki, ölkəmizin Qoşulmama Hərəkatına sədrliyi dövründə dövlət başçımızın bir sıra təklifləri yüksək dəyərləndirilmiş və qurumun üzvləri tərəfindən dəstəklənmişdir._**

Xatırladım ki, COVID–19-la beynəlxalq səviyyədə mübarizə aparılması ilk dəfə möhtərəm Prezidentimizin təşəbbüsü ilə reallaşdırılmışdır. Xatırladaq ki, dövlətimizin başçısı Qoşulmama Hərəkatının sədri kimi COVID–19-la qlobal mübarizəyə mühüm töhfələr vermiş və Prezidentimizin təşəbbüsü ilə Türk Şurasının və Qoşulmama Hərəkatının təmas qrupu formatında videokonfrans vasitəsilə koronavirusla mübarizəyə həsr olunmuş “COVID–19-a qarşı birlikdəyik!” mövzusunda zirvə görüşləri keçirilmişdir. Bundan əlavə, möhtərəm Prezidentimizin təklifi ilə Nyu-Yorkda BMT Baş Assambleyasının COVID–19-la mübarizəyə həsr edilən xüsusi sessiyası keçirilib.

Bugünlərdə Belqradda Qoşulmama Hərəkatının 60 illiyi münasibətilə keçirilən yüksək səviyəli toplantıda möhtərəm Prezidentimizin Qoşulmama Hərəkatının sədri kimi rəsmi açılış hissəinə sədrlik etməsi hər birimizdə qürur hissi yaratdı. Dövlətimizin başçısı bu dəfə də bir sıra təkliflər irəli sürdü və həmin təkliflər yüksək səviyyədə dəstəkləndi. Prezident İlham Əliyev çıxışında bildirdi ki, biz COVID–19-dan sonrakı dövr üçün fikir mübadiləsinin aparılması və təşkilatın mövqeyinin formalaşdırılması məqsədilə Qoşulmama Hərəkatına üzv dövlətlərin yüksək səviyyəli iclasının keçirilməsini təklif etmişik. Dövlət başçısı bildirdi ki, BMT-nin COVID–19-dan sonra Qlobal Bərpa üzrə yüksək səviyyəli panelinin yaradılması təklifinin Qoşulmama Hərəkatı tərəfindən təşviq edilməsi məqsədəuyğun olardı: “Azərbaycan Qoşulmama Hərəkatına üzv dövlətlərin parlamentariləri arasında əməkdaşlığın inkişafı ilə bağlı addımlar atır. Bir həftə bundan əvvəl Azərbaycan sədr kimi Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsinin təsis iclasını keçirdi. Mən təklif edirəm ki, Qoşulmama Hərəkatına üzv dövlətlər artıq təsisatlanma ideyası üzərində düşünsünlər. Azərbaycan sədr qismində məsləhətləşmələr apararaq, Hərəkata üzv dövlətlərin bununla bağlı mövqeyini öyrənəcəkdir”.

Dövlətimizin başçısı əminliklə bildirdi ki, Qoşulmama Hərəkatının sədri kimi Azərbaycan beynəlxalq münasibətlərdəki qlobal çağırışların həlli istiqamətində hərəkatın rolunun daha da gücləndirilməsi, habelə ədalətin, beynəlxalq hüququn və Qoşulmama Hərəkatına üzv dövlətlərin legitim maraqlarının müdafiəsi istiqamətində səylərini əsirgəməyəcəkdir.

**_Səhər İSMAYILOVA,_**
**_Bakı Şəhər İcra Hakimiyyəti Başçısı Aparatının sektor müdiri, politoloq_**

Xalq qəzeti.- 2021.- 13 oktyabr.- S.3.